**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

20 yanvar 2022-ci il
№03 (8961)

www.muallim.edu.az
muallim@edu.gov.az





Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

**İlham ƏLİYEV**




# Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi



## Fakt və rəqəmlər

Qanlı Yanvar hadisələri zamanı Bakı şəhərində 131 nəfər həlak olub, ümumi nəticəyə görə isə bu hadisələrdə yaralananların sayı 800, həbs olunanların və itkin düşənlərin sayı isə 1000 nəfərdən çox olub. Eyni zamanda 200 ev və mənzil talan edilərək yandırılıb, 80 avtomaşın, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edilib. Faciə SSRİ Daxili İşlər və Müdafiə nazirliklərinin və Dövlət Təhlükəsizlik Komitəsinin təşkilatçılığı ilə müdafiə naziri Yazovun komandanlığı altında törədilib.





